# Azərbaycan Qarabağın bərpası kimi önəmli vəzifəni öz gücünə uğurla yerinə yetirir

***Azərbaycan dövləti hazırda keyfiyyətcə yeni bir dövrə – 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olub. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.***



Prezident İlham Əliyev martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edərkən bütün bunlar barədə ətraflı bəhs edilib. Dövlətimizin başçısı tərəfindən Azərbaycanın BMT-nin çox fəal üzvü olduğu, bu beynəlxalq təşkilatın müxtəlif qurumları ilə uğurla əməkdaşlıq həyata keçirildiyi vurğulanıb. Buna misal olaraq, BMT-nin Məskunlaşma Proqramının bərabərlik, yoxsulluğun azaldılması və urbanizasiya dəyərlərinin təşviq edildiyi diqqətə çatdırılıb.

Ölkə rəhbəri söhbət zamanı Azərbaycanda yoxsulluğun azaldılması ilə bağlı vəziyyətə də toxunub: “Yoxsulluğun azaldılması ilə bağlı hesab edirəm ki, biz bu qlobal bəlanın öhdəsindən uğurla gələ bildik və Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən beş faizdir. Bu da onu göstərir ki, sərvətin bərabər şəkildə bölüşdürülməsi üçün biz enerji sektorundan qaynaqlanan gəlirlərdən müvafiq şəkildə istifadə edə bilmişik. Əlbəttə, iqtisadi islahatlarla, məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni mənzərə yaradacaqdır, çünki əhalimiz artır. Buna görə də məşğulluqla və əlbəttə ki, bununla birbaşa əlaqəli olan yoxsulluğun səviyyəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir”.

Yeri gəlmişkən, xatırladaq ki, BMT-nin Dayanıqlı İnkişaf Hesabatında bildirilir ki, respublikamızın 2021-ci ildə də mühüm qlobal təşəbbüslərdə fəal iştirakı yerli iqtisadi islahatların gedişini sürətləndirib, səmərəliliyini artırıb. Hesabatda 165 ölkə arasında 55-ci yeri tutub. Sənəddə Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi xüsusi vurğulanıb.

Şübhəsiz ki, bu məsələdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulması xüsusi önəm daşıyıb. Dövlətimizin başçısı bununla əlaqədar çıxışlarının birində deyib: “Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlət olub”.

Yeri gəlmişkən, respublikamızda pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması bu istiqamətdə həyata keçirilən tədbirlərin, eləcə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin daim diqqət mərkəzində saxlanılması nəticəsində gerçəkləşib. Xatırladaq ki, Dayanıqlı İnkişaf Məqsədləri dünyada həyat səviyyəsini yüksəltmək, bərabərsizliyi azaltmaq, dayanıqlı iqtisadi inkişafa təkan vermək kimi vəzifələrin icrasını qarşıya mühüm vəzifə kimi qoyub. Uğurla reallaşdırılan inkişaf strategiyası nəticəsində Azərbaycanda yoxsulluq son 18 ildə 49 faizdən 5 faizə enib. “Bərabərsizliyin azaldılması” məqsədinə gəlincə, Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdə qərarlaşıb.

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik və yoxsulluğun aşağı olması həyat səviyyəsinə müsbət təsir göstərir. Respublikamızda yüksək həyat tərzi üçün ən müasir infrastruktur və təminat mövcuddur. Azərbaycanın dünya iqtisadiyyatına sürətli inteqrasiyası ixracın genişlənməsini şərtləndirir, bu şəraitdə ticarət tərəfdaşlarının sayı da ilbəil artır. Hazırda dünyanın 180 ölkəsi ilə ticari-iqtisadi əlaqələr həyata keçirilir.

Xarici bazarda rəqabətin kəskinləşməsinə baxmayaraq, ölkə məhsul ixracında öz payını qoruyur və bu paya görə Azərbaycan 200-ə yaxın dövlət arasında ilk 70-likdə qərarlaşıb. Əlverişli biznes mühiti və iqtisadiyyatın rəqabət qabiliyyəti adambaşına gəlir səviyyəsinin artmasına nail olmaq üçün əsas şərt rolunu oynayıb.

Prezident İlham Əliyev Məskunlaşma Proqramının icraçı direktoru ilə söhbətində daha sonra deyib: “İşğaldan azad edilmiş əraziləri ziyarət etdiyiniz üçün sizə minnətdaram. Bilirəm ki, Ağdamda olmusunuz və dağıntının miqyasını öz gözlərinizlə görmüsünüz. Sizi əmin edə bilərəm ki, işğaldan azad olunmuş bütün ərazilərdə vəziyyət eynidir. Hər şey dağıdılıb, məhv edilib, vandalizm, barbarlıq nəticəsində Ağdam mövcud deyil. On minlərlə insanın məskəni olmuş şəhər indi dağıntılar içindədir. Bu, işğal illəri ərzində ermənilər, erməni cinayətkar rejimi tərəfindən törədilmişdir. Demək olar ki, otuz il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə dağıdılırdı. Lakin torpaqlarımızın azadlığı uğrunda müharibə onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalacaqdır...”.

Dövlətimizin başçısı söhbətində, eyni zamanda, işğal illəri ərzində beynəlxalq birliyin erməni faşizminin barbarlığına susduğunu, BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyası və digər mühüm beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul edilməsinə baxmayaraq, Ermənistana ciddi təzyiq göstərilmədiyini, işğalçı ölkəyə qarşı heç bir sanksiya tətbiq edilmədiyini bildirib. Ölkə rəhbəri qeyd edib ki, hətta bəzi ölkələr tərəfindən təcavüzkarı və təcavüzün qurbanını tərəzinin eyni gözünə qoymağa cəhd olunub.

Azərbaycanın Prezidenti qeyd edib ki, ermənilərin bu əraziləri uzun müddət ərzində öz nəzarəti altında saxlamalarının əsas səbəblərindən biri də məhz həmin cəzasızlıq şəraitin yaradılması olub.

Söhbətdə hazırda Azərbaycanın qarşısında mühüm çağırışların – Qarabağ və Şərqi Zəgəzurun yenidən qurulması kimi önəmli bir vəzifənin dayandığı diqqətə çatdırılıb. Eyni zamanda, düşməndən təmizlənən ərazilərdə genişmiqyaslı bərpa prosesinin aparıldığı və bu işlərin Azərbaycanın öz gücünə gerçəkləşdirildiyi göstərilib. Həmçinin tikinti-quruculuq layihələrinin bundan sonra da sürətlə aparılacağı xatırladılıb. Amma buna baxmayaraq, qəribədir ki, indiyə qədər bu məsələ ilə bağlı nə donor konfransı ilə bağlı ideyalar reallaşıb, nə də hansısa bir dövlətin maliyyə dəstəyi nəzərə çarpıb. Hətta məşhur qeyri-hökumət təşkilatları, beynəlxalq fondlar da Qarabağ və Şərqi Zəngəzurda baş verənlərə göz yumub.

Prezident söhbətində dünyanın erməni barbarlığı haqqında əsl həqiqəti öyrənməsinin zəruriliyini də diqqətə çatdırıb və işğalçının belə vandal əməllərinə görə cəzalandırılmasının vacibliyini qeyd edərək, xatırladıb ki, düzdür, Azərbaycan Ermənistanı Vətən müharibəsində heç vaxt unutmayacağı bir şəkildə cəzalandırıb. Amma təcavüzkarın beynəlxalq səviyyədə də əməlinə qiymət veriləcəyinin gözlənildiyini diqqətə çatdırıb: “Əlbəttə ki, təzminat məsələsi var. Biz təzminat tələb edirik. Bu məsələni beynəlxalq arenada qaldırmaqda bizə kömək etmək üçün artıq beynəlxalq təsisatları, hüquqşünas qrupları cəlb etmişik. Beləliklə, planlar bundan ibarətdir. Düşünürəm ki, gələn ilin proqramı üçün biz əməkdaşlığımızı yaranmış bu mühüm reallığa uyğunlaşdırmalıyıq”.

Prezident İlham Əliyev söhbətinin sonunda işğaldan azad edilən ərazilərin “barıt çəlləyinə” çevrilməsi – minalanması səbəbindən bu torpaqlara məcburi köçkünlərin qaytarılması vaxtının uzandığını xatırladaraq, bu istiqamətdə tədbirlərin sürətlə həyata keçirildiyini, həmçinin geri qayıdacaq insanlar üçün layiqli şərait yaratmaq üçün mühüm layihələrin reallaşdırıldığını bildirib. Həmçinin Livan böyüklüyündə bir ərazinin necə bərpa edildiyinin işğaldan, dağıntıdan və başqa ciddi problemlərdən əziyyət çəkən digər ölkələr üçün yaxşı nümunə olacağına əminliyini diqqətə çatdırıb.

Maimuna Mohd Şərif isə Azərbaycanın məqsədinin Ağdam da daxil olmaqla işğaldan azad edilmiş ərazilərdə sıfır emissiyalı müasir ekoşəhər konsepsiyasının tətbiq edilməsi olmasını məmnunluqla vurğulayıb. O, BMT-nin Məskunlaşma Proqramının dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasında, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasında təcrübəsi ilə dəstək verdiyini və bu xüsusda Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazır olduğunu da diqqətə çatdırıb.

**V.BAYRAMOV, “Xalq qəzeti”**